# T Ə L İ M A T

Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan bankların kredit yığımının mərkəzləşdirilmiş qaydada təşkili, kredit yığımlarının operativliyini, şəffaflığını, müştərilərin rahatlığını təmin edilməsi məqsədi ilə Fondun daxili informasiya sisteminin ölkədə geniş xidmət şəbəkəsi olan Hökumət Ödəniş Portalına inteqrasiyasını təmin etmişdir.

Ləğv prosesində olan bankların kredit müştəriləri Hökumət Ödəniş Portalının internet resursundan istifadə etməklə, ölkə ərazisində fəaliyyət göstərən bankların xidmət şəbəkəsində, poçt rabitəsi milli operatorunun ödəniş terminalları şəbəkəsindən nağd və ya nağdsız qaydada ödəniş kartları və bank hesabları vasitəsilə kredit borclarının ödənilməsi həyata keçirə bilərlər.

Ləğv prosesində olan bankların müştəriləri kreditlərini veb üzərindən ödəmək üçün ilkin olaraq olaraq HÖP-ün internet səhifəsinə daxil olaraq ( https://gpp.az/az ) “Qeydiyyatsız Ödənişlər ” bölməsində, “İpoteka Və Digər Kiredit Ödənişləri” nə daxil olaraq “ Əmanətlərin Sığortalanması Fondu” bölməsini seçdikdən sonra məlumatlarınızı daxil etməklə ödənişləri online qaydada həyata keçirə bilərsiniz.









“Ödəyici kodu” bölməsində müştərinin fin kodu (şəkildə qeyd olunan 7 simvol) və müştəri kodu-nu ardırcıl daxil edərək və həmçinin təhlükəsizlik kodunu daxil etməklə "Axtar" düyməsi basılır. Bundan sonra ekranda görünəcək kredit borcları üzrə ödəniş həyata keçirilə bilər.( Müştəri kodunu bilməyən müştərilər müvafiq banka müraciət etməklə müştəri kodunu əldə edə bilərlər)

